# Bir ər oğlu ər, Azərbaycan oğlu tanıyıram - Həbib Əliyev...

## Qürbətdə yanan "Ümid çırağımız!.."

**Hörmətli oxucu, 27 fevral - 7 mart 2014-cü ildə "Müasir Azərbaycan müəllimi" qəzetində davamlı olaraq "Həbib Əliyev kimdir?", "Uzaqdan gələn səslər" adlı silsilə yazılar yazmışdım. Bəziləri onu çoxdan, lap çoxdan tanıyır, mən isə beş ildir tanıyıram. Onu fədakar vətən oğlu kimi tanıdım və sevdim, hətta yaxşı mənada qibtə də etdim. Fikirləşdim ki, ilahi, nə olardı bütün vətəndaşlarımız vətənimizi onun kimi sevə, heç bir qarşılıq ummadan vətən üçün canını fəda etməyə hazır olaydı...**

Bu insan mənim üçün vətən uğrunda mübarizə aparıb, yüksək vətənpərvərlik ruhunu aşılayan mərd vətən oğullarından biridir. Bu yazımda onun bir vətən oğlu kimi Sevastopolda vətənimiz üçün nələr etdiyini qələmə almayacam (çünki bu haqda silsilə yazılarım var).

Bu yaxınlarda "Azərbaycan" nəşriyyatının qarşısında "Bakı-Xəbər" qəzetinin baş redaktoru Aydın Quliyev və şair Eldar Həsənli ilə görüşəndə telefonumdakı şəkilləri görüb dedi ki, Həbib müəllimi mən də tanıyıram, dəyərli insan, əsl vətəndaşdır. Onun haqqında yazılarınız olsa, qəzetimizin səhifələrində yer ayıra bilərik.

Bu yazımda vətən oğlunun daxili, mənəvi aləminə baş vuracam və sizlərə Həbib müəllimi tamam fərqli ampluada tanıtmağa çalışacağam. Əgər bunu bacarsam, nə xoş mənə...

Həbib müəllimin siması gözəl və nurludur, qəddi-qamətlidir, gözləri işıqlı və bir o qədər də yorğundur.

Saçlarına ağ cığırların vaxtsız iz saldığını o saat anlamaq olar. Çoxları üçün əsl qəhrəman, fədakar insan, Azərbaycan kişisi timsalıdır. Mən onu əvvəl bir jurnalist kimi tanımışam. Çox səbrli və təmkinli davranışları var idi. İlk vaxtlar fikirləşirdim ki, görəsən, bu insan əsəbiləşə bilərmi? Sonralar gördüm ki, əsəbiləşir. Axı o da insandır. Əsəbiləşsə belə, təmkinini pozmur, hər kəslə öz dilində danışmağı bacarır...

Məndən soruşsalar ki, vətən üçün canını fəda edən kimləri tanıyırsan? - Bu sırada yer alan çoxları var təbii ki... Bu sırada mən həm də Həbib Əliyevin adını heç fikirləşmədən çəkərdim. Deyərəm ki, o bizim xaricdə Ulu Öndər Heydər Əliyev kursunu vicdanla, - təmənnasız davam etdirən "Qobustan" radiosunun "Ümid çırağıdır". Xarici ölkədə, qürbətdə Vətən üçün çalışan bir azərbaycanlı vətəndaşımızdır Həbib müəllim.

Həbib müəllimin bu vətən üçün etdiklərini yazmaqda sözlər, cümlələr azlıq təşkil edər, yoxsul qalar...

Sevgilər cürbəcür olur: ana sevgisi, övlad sevgisi, nəvə sevgisi və s. Həbib müəllimdə isə elə bir sevgi təzahür edib ki, onun bu sevgisi olmasa, heç bir başqa sevginin önəmi yoxdur. Bu, vətənə, torpağa olan sevgidir. Bu sevgi yolu çox keşməkeşli, daşlı-kəsəkli yoldur əslində. Çoxları bu yolu sonadək gedə bilmir, ancaq Həbib müəllim xaricdə fəaliyyət göstərib də "vətənim dardadır, işğal olunan torpağım alınmayanacan qələmimi süngü edib mübarizə aparacam", - deyib...

Artıq Həbib müəllimin 74 yaşı var. Ailə həyatı belə qurmayan bu insan bütün sevgilərini qəlbinin dərinliyində vaxtsız-vədəsiz söndürüb. Onun bütün varlığı, qəlbi vətən sevgisinə köklənib...

Bir müddət Bakıda fəhlə yataqxanasında tərbiyəçi işləyib, bir müddət məktəbdə dil-ədəbiyyat fənnini tədris edib, bir müddət xaricdə Azərbaycan balalarına pulsuz dərs deyib, uşaqlara vətən, torpaq sevgisi aşılayıb. Ən çətin zamanlarda, 1990-cı ildə qorxmadan bir sovet generalına deyib ki, 1941-1945-ci illərdə müharibə gedəndə bizim babalarımız, oğullarımız sizin torpaqlarınız üçün canından keçib, sizlər isə bu yaxşılığın əvəzində bizim öz torpaqlarımızda xalqımıza silah qaldırıb, torpaqlarımızın işğalına şərait yaradırsınız.

Bax, beləcə bütün həyatını vətəninə, torpağına həsr edib Həbib müəllim. Taleyinə yağışlar yağsa da, baharı qışa dönsə də, çətinliklər dolu kimi üstünə tökülsə də, vətən üçün çıxdığı yolda cavan ömrü solsa da, bu yoldan dönməyib o. Qərib ölkədə "Qobustan" radiosu ilə, Bakıdan gedəndə apardığı sarı simli tarla nəfəs alıb. Azərbaycan həqiqətlərini yayıb, bu yolda qarşısına çıxan maneələr onu yıxmağa çalışsa da, yıxılmayıb. Dimdik ayaqda durmağı bacarıb. Ona görə bacarıb ki, bu insanda vətən eşqi, vətən sevgisi ilahi mərtəbəyə çatıb. Onu deyə bilərəm ki, Həbib müəllim insanlarımız üçün əvəzolunmaz, fəxr etdiyimiz bir Azərbaycan kişisidir.

Hörmətli Həbib müəllim! Sizə bütün tanıyanlar adından deyə bilərəm ki, siz hər kəsin ürəyində yer tapmısınız. Sizi hamımız sevirik. Buna əmin ola bilərsiniz. Bilirsiniz niyə? Çünki sizi gözəl edən nə ağ saçınız, nə nurlu üzünüzdür. Sizi fərqli edən və sevdirən sizin qəlbinizin vətən üçün vurması, sevginizin sonsuz olması və bu yolda etdiyiniz fədakarlıqlardır.

Belə bir deyim var ki, "çox insan sadəcə "var" olur. Yaşamaq çox nadir hallarda rastlanan bir şeydir. Həbib müəllim, sözün əsl mənasında, "var" olan yox, "yaşayan və yaşadan" insanlardandır. Yaşayıb-yaradaraq bu gün 75 yaşına çatıb. İllər bir göz qırpımında ötüb keçib... Elə bil hər şey dünənmiş kimi... Bu 75 yaşın çox hissəsini usanmadan, bezmədən xalq üçün yaşayıb, vətən üçün çalışıb. Hər zaman ürəklərdə yaşayacaqsınız, əziz Həbib müəllim. Çünki heç kim unudulmur, heç nə yaddan çıxmır.



Əziz oxucum, bütün bu ürəyimdən gələn sözləri yazarkən həmişə qorxduğum bir biganəliklə rastlaşdım. Eşitdim ki, Həbib müəllim Sevastopoldan xəstələnib Bakıya gəlib. Üzdə olan televiziya aparıcılarına (Zaur B, Xoşqədəm H.) yazılı müraciət etdim. Bu vətən oğluna da biganə qalmamağı, kömək etməyi onlardan xahiş etdim. Lakin qara daşdan səs çıxdı, onlardan səs çıxmadı. Sonda Həbib müəllim özü dedi ki, heç kimə ağız açmayım və istədi ki, onu Naxçıvana - Babək rayonunun Cəhri kəndinə yola salım. Naxçıvana gedəndən sonra tez-tez onunla əlaqə saxlayırdım. Ona kömək edə bilmədiyim üçün özümü günahkar sayır, elə hey düşünür-düşünürdüm. Bircə dualarımı əskik etmirdim. Axı əlimdən başqa heç nə gəlmirdi.

Sonuncu dəfə zəngləşəndə dedi ki, vəziyyəti ağırlaşıb, Naxçıvan Mərkəzi Xəstəxanasındadır, etibarlı əllərdədir. Naxçıvan Mərkəzi Xəstəxanasının baş həkimi Zəbur Bağırovdan, cərrahiyyə şöbəsinin müdiri, tibb elmləri namizədi Məhərrəm Tarıverdiyevdən və bir çox xəstəxana işçisindən ağızdolusu minnətdarlıq etdi. Çox sevindim.

Onun Naxçıvanda bu cür qayğı ilə əhatə olunmasında, xüsusi diqqət yetirilməsində hörmət etdiyim bir nəfərin də xidməti çox böyük oldu. Bu şəxs "Bakı-Xəbər" qəzetinin baş redaktoru Aydın müəllimdir!

Aydın müəllimin də narahatlığı öz bəhrəsini verdi. Belə ki, bir çox ziyalı, vətən oğulları Həbib müəllimlə bağlı məlumatlandırıldı. Və bundan sonra Həbib müəllimdən, onun səhhətindən xoş xəbərlər gəlməyə başladı.

Sonra eşitdiyim, Naxçıvana dövlət xəttilə gedən bir dəstə deputatımızın, başda Mətbuat Şurasının sədri deputat Əflatun Amaşov olmaqla, Həbib müəllimin müalicə aldığı xəstəxanaya getmələri, onu ziyarət etmələri, həkimlərə onun haqqında bilgi vermələri çox ürəkaçan idi. Ona görə ürəkaçan idi ki, Həbib müəllim kimi insanların qiymətini, şair demişkən, sağlığında verməklazımdır. Sonda çox-çox gec olur axı...

Bu yaxınlarda Həbib müəllimlə telefonla əlaqə saxladım. Çox ürəkli danışdı. Onunla tez-tez telefon əlaqəsi saxlayan Aydın Quliyevdən, Əflatun Amaşovdan çox razılıq etdi.

Onun bu söylədiklərindən sonra bir vətəndaş kimi ürəyim qürurla doldu. Fikirləşdim ki, dünya yaxşı insanlardan xali deyil. Vətən üçün, torpaq üçün canını fəda edən, vətənin əsl vətəndaşı olan insanları düşünən, onlara biganə olmayan yaxşı insanlar da varmış.

Həbib müəllimə ziyalılarımız tərəfindən olan qayğını gördükdə ürəyim riqqətə gəldi.

Prezident İlham Əliyev cənablarına belə bir məzmunda teleqram vurdum. Teleqramın mətnini olduğu kimi təqdim edirəm:

"Hörmətli Prezidentimiz Heydər Əliyev rəhmətə gedəndə dünya mənim üçün bir az da daralmışdı. Lakin sonra Siz hakimiyyətə gəlib ilk reformalarınıza başlayanda gördüm ki, ölkəmizin taleyi möhkəm əllərdədir. Müasir dövrdə mediamızın başında duran sağlam düşüncəli insan Əflatun Amaşovun Naxçıvana dövlət xətti ilə getməsi və orada xəstəxanada yatan vətən oğlu Həbib Əliyevə öz başının dəstəsi ilə baş çəkib, qayğısına qalmasını eşidəndə qürur hissi duydum ki, həqiqətən də vətəni sevən adamların sevgisi ən əsas onun genində, qanında, canında olmalıdır. Həbib Əliyev o şəxslərdəndir ki, Qarabağ hadisələrində Heydər Əliyev kursunu əldə əsas tutaraq xaricə - Ukraynaya getmiş, orada Azərbaycan həqiqətlərini dünyaya yaymaq üçün "Qobustan" radiosunu təkbaşına açmışdır. Elə oldu ki, Həbib Əliyev xəstələndi. Bakıda ATV-yə, "Xəzər" TV-yə müraciət etdim, heç kim ona dayaq durub, sağalması üçün həkimlərlə əlaqə yaratmadı, qayğısına qalmadı. Axırda naəlac qalıb, ağır vəziyyətdə onu doğulduğu Cəhri kəndinə yola saldım. Mən jurnalist olaraq Həbib Əliyevin xaricdə vətənimiz naminə etdikləri barədə silsilə yazılar yazmışdım. Mətbuat Şurasının sədri Əflatun Amaşovun Naxçıvana gedərək bir qrup deputatla xəstəxanada Həbib Əliyevə baş çəkməsi bir daha onu göstərir ki, Sizin seçib təyin etdiyiniz belə adamlar əsl vətənpərvər insanlardır. Ona görə də, cənab Prezidentim, Sizə bütün jurnalistlər və ailəmiz adından "çox sağ olun" deyirəm.

Allah Sizi qorusun. Amin!"

Həbib Əliyevin son 23 ildə Krımda Sevastopoldakı "Qobustan" radiosunun hər verilişində Üzeyir Hacıbəyovun "Koroğlu" üverturasının sədası altında minlərlə Azərbaycan ziyalısı təbliğ edilib. Burada Azərbaycanın tarixi, ədəbiyyatı, mədəniyyəti, muğamı, saz fəlsəfəsi daim efirdə səslənib. Tək Naxçıvandan 250 nəfər alim, şair, mədəniyyət işçisindən verilişlər efirə gedib. Gəncədən, Şamaxıdan, Bakıdan verilişlər gedib. Həbib Əliyev Sevastopolda teleradiodakı fəaliyyətinə görə fəxri fərmana, şəhər merinin diplomuna layiq görülüb, 2013-cü ildə Krımın Sudak şəhərində keçirilmiş dünya jurnalistləri radioları üzrə fəxri diploma və gümüş medala layiq görülüb. Azərbaycanda 2015-ci ildə Azərbaycan Prezidentinin fəxri diplomuna və Mətbuat Şurasının diplomuna layiq görülüb.

İlk verilişi "Heydər Əliyevin Qafqazda sülh siyasəti" olub, "Heydər Əliyev və Ukrayna", sonra "Nizami Gəncəvi dünya şairləri içərisində", "Krımda həlak olan azərbaycanlıların tarixi",

"Ukrayna və Azərbaycan mədəni əlaqələri" kimi verilişlər ilk verilişlərdəndir.

Azərbaycan Milli Elmlər Akademiyasında Tarix və Ədəbiyyat İnstitutundan alimlər, Fəlsəfə İnstitutunun direktoru İlham Məmmədovun çıxışı. "Azərbaycan fəlsəfəsi və dünya fəlsəfəsi". Tarix Etnoqrafiya İnstitutu, Səməd Vurğun, Budaq Budaqov, Nəriman Həsənzadə, Anar, Fikrət Qoca, Çingiz Abdullayev haqqında, "Lermontov və Azərbaycan", "Mirzə Fətəli Axundov və dostu Puşkin", "Taras Şevçenko və Azərbaycan ədəbiyyatı", "Naxçıvanın ayrıca tarixi", "Şamaxının tarixi abidələri" və digər bu qəbildən olan verilişlər "Qobustan"da gedir.

Nəhayət, Azərbaycanın bugünkü həyatında və dünya səviyyəli inkişafında İlham Əliyevin rolu və Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən Azərbaycan milli-mənəvi dəyərlərinin dünya səviyyəsində təbliği "Qobustan" proqramının da əsas mövzu xəttini təşkil edib.

***Surxay Şirvan oğlu HÜMBƏTOV***
***"Türkün Fəxri" qəzetinin xüsusi müxbiri, Azərbaycan Jurnalistlər Birliyinin üzvü***